# KIMYANIN TƏDRISINDƏ PRAKTIK ISTIQAMƏTIN GÜCLƏNDIRILMƏSI

**T.İ.Tağıyev**

*Gəncə Dövlət Universiteti*

Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyasına aid həyata keçirilməsi zəruri olan mühüm məsələlərdən biri təhsil sahələrində insan resurslarının müasirləşdirilməsi nəzərdə tutulur. Belə ki, 30-40 il ərzindəki elmi-texnoloji tərəqqi, innovasiyalar və modernləşmə nəticəsində praktik bacarıq və vərdişlərlə zənginləşməyən, sırf nəzəri xarakter daşıyan təhsil öz fundemental əhəmiyyətini itirməkdədir. Bu baxımdan təhsilin məzmununun formalaşmasında akademik biliklərlə yanaşı, praktik bacarıqların , səriştənin vacibliyi önə çəkilir.

Səriştə - mənimsənilmiş bilik və bacarıqların praktik fəaliyyətdə effektiv və səmərəli tətbiq etmək qabliyyətidir.

Təhsilin qarşısında qoyulan bu vəzifələr bütün fənnlərlə yanaşı, həmçinin kimyanın tədrisi proseseində də praktik istiqamətin gqcləndirilməsini tələb edir.

Kimyanın tədrisində praktik istiqamətin gücləndirilməsini aşağıdakı yollardan istifadə etməklə həyata keçirmək mümkündür:

1) Kimyəvi maddələrin tətbiq sahələrinə aid biliklərin verilməsi prosesində: o,cüümlədən kənd təsərrüfatında, sənayenin müxtəlf sahələrində, maşınqayırmada, metallurgiyada, məişətdə, toxuculuqda və s.

2) Laboratoriya və praktiki işlər vasitəsi ilə şagirdlərdə praktik bacarıqları formalaşdırmaqla;

3) Kimya sənayesi ilə şagirdlərin tanış edilməsi zamanı istehsalat prosesinn səmərəli idarə edilməsində, ətraf mühitin mühafizəsində kimyəvi biliklərdən istifadənin zəruriliyini aşkar etməklə;

4) Nəzəri biliklərin tətbiqi ilə bağlı məsələlə həllindən istifadə etməklə və.s.

Kimyanın tədrisində fənlərarası əlaqədən istifadə etməklə şagirdlərin mənimsədikləri nəzəri biliklərin praktik tətbiqini həyata keçirmək üçün geniş imkanlar vardır.

Bu məqsədlə **"Mineral gübrələr"** mövzusunun tədrisində gübrələrin səmərəli tətbiqinə aid biliklərin öyrədilməsi metodikasını nəzərdən keçirək. Burada əvvəlcə duzların elekktrolitik dissosiasiya nəzəriyyəsi nəzərıyyəsi baxımından suda ionlarına ayrılması və duzların hidrolizi əsasında müitin turş ,əsas və neytral mühit yaranmasna aid mənimsənilmiç bilikləri onlara xatırlatmaq üçün aşağıdakı suallara cavab verilməsi tələb olunur:

1) Hansı duzların hidrolizindən mühit turş olar?

2) Hansı duzların hidrolizindən mühit əsasi xassəli olar?

3) Hansı duzların hidrolizindən mühit neytral olar?

4) Torpaqda olan duzların suda həll olaraq onun mühitinin turş, əsasi və neytral müitə cevrilməsi mexanizmini izah edin.

5) Gübrə kimi işlədilən duzlardan hansılar hidroliz nəticəsində torpaqda turş, neytral və əsasi mühit yaratmağa səbəb olan bilər? Bu cür gübrələrə misal göstərin.

Şagirdlərin yuxarıdakı suallara verdikləri cavabları ümumiləşdirdikdən sonra fənlərarası əlaqədən istifadə edərək şagirdlərin biologiyadan və kimyadan gübrələrə aid mənimsədikləri biliklərə istinad edərək qarşıda belə bir situasiya yaradılır:

Bitkilər azot və fosfor qida elementlərini gübrələr vasitəsi ilə torpaqdan mənimsəyirlər. Fosforun aşağıdakı birləşmələri gübrə kimi istifadə olunur: $Ca_3(PO_4)_2$, $CaHPO_4$, $Ca(H_2PO_4)_2$, $(NH_4)_3PO_4$, $NH_4H_2PO_4$, $(NH_4)_2HPO_4$ və s.

Torpağa verilən gübrələrin əksəriyyəti bərk halda olan duzlardır.Həmin duzların tərkibindəki qida elementlərinin bitki orqanizminə daxil olması üçün onlar əvvəlcə suda həll olur. Hidroliz nəticəsində alınan anion və kationlar torpağın uducu kompleksindəki anion və kationlar ilə mübadilə olunur. Bitkilər isə torpağın uducu kompleksindən özünə lazım olan anion və kationları mənimsəyirlər. Bu izahatdan sonra qarşıda beə bir problemli vəziyyət yaradılır:

$Ca_3(PO_4)_2$ duzu suda həll olmur, ondan gübrə kimi istifadə etmək olarmı? Əgər olarsa hansı yolla? Həmin duzun tərkibindəki fosfor qida elementinin bitkilər tərəfindən mənimsənilməsi necə mümkün ola bilər? cavabınızı əsaslandırın.

Şagirdlər düşündürücü fəaliyyətə cəlb olunduqdan sonra onları problemin həllinə istiqamətləndirmək üçün aşağıdakı məzmunda tapşırıq verilir:

Dərslikdən istifadə edərək fosfatların suda həll olması ardıcıllığını sxemlə göstərin.

Bu məqsədlə əvvəlcə fosfatların suda həll olması ilə bağlı dərslikdə verilən material üzrə şagirdlərin müstəqil işləri təşkil edilir.Fosfor gübrələrinə aid dərslikdəki materialdan istifadə edərək şagirdlər fosfatların suda həll olma ardıcıllığını əks etdirən aşağıdakı sxemi tərtib edirlər

$Ca_3(PO_4)_2 < CaHPO_4 < Ca(H_2PO_4)_2$

Sxem üzərində müşaibə təşkil edərək aşkar edilir ki, formulları yuxarıda verilən fosfatların suda həll olması soldan sağa getdikcə artır.

Fosfatların suda həll olmasını göstərən sxemə əsaslanaraq şagirdlər belə nəticəyə gətirilir ki, kalsium fosfatı kalsium - hidrofosfata və kalsium dihidro fosfata çevirmıklə ondan gübrə kimi istifadə edilməsini təmin etmək olar.

Bu izahatdan sonra qarşıda yeni bir problemli sual qoyulur. Dərslikdə verilən materialdan istifadə edərək aşağıdakı suallara cavab verin:

$Ca_3(PO_4)_2$ –birləşməsindən $CaHPO_4$ -ü və $Ca(H_2PO_4)_2$–i necə almaq olar?

Dərslikdə verilən materialdan istifadə edərək şagirlər belə nəticəyə gətirilir ki, $Ca_3(PO_4)_2$ – duzuna turşu ilə təsir etməklə onu suda həll ola bıən hidrofosfatlara və dihidro fosfatlara çevrilməsi mümkündür.Hidrofsfatlar və dihidro-fosfatlar torpaq məhlulunda həll olaraq torpağın uducu kompleksinə daxil olar, torpağın uducu kompleksindəki qida elementi fosfor bitkilər tərəfindən mənimsənilə bilər. Beləliklə problem həll olunur.

Sonra qarşıda yeni bir prolem qoyulur:

Əgər torpağın mühiti turş olarsa belə torpağa fosforit $Ca_3(PO_4)_2$ gübrəsi verilməsi ilə bitkilərin fosfora olan tələbatını ödəmək olarmı?

Kalsium fosfatın kalsium hidrofosfata və kalsium dihiddrofosfata çevrilməsinə aid mənimsənilən biliklərdən istifadə edərək şagirdlər belə nəticəyə gətrilir ki, $Ca_3(PO_4)_2$ turş mühitdə suda həll ola bilən birləşmələrə çevrilərək torpağın uducu kompleksinə daxil olur, torpağın uducu kompleksindən fosfor qida elementi bitkilər tərəfindən mənimsənilə bilər.

Beləliklə problem həll olunur.

Daha sonra yeni problem irəli sürülür:

Fosforitin tərkibi əsasən $Ca_3(PO_4)_2$ duzundan ibarətdir.Həmin duz suda həll olmur. $Ca_3(PO_4)_2$ duzunu suda həll ola bilən turş gübrələrlə qarışdırmaqla torpağa vermək olarmı?

Duzların hidrolizinə aid şagirdlərin mənimsədikləri bilikləri onlara xatırlatmaqla tərkibində qida elementi azot olan turş gübrə $(NH_4)_2SO_4$ ilə $Ca_3(PO_4)_2$ -in qarşılıqlı təsiri reaksiyasının tənliyini yazmaq tapşırılır.

$$Ca_3(PO_4)_2 + 3(NH_4)_2SO_4 \rightarrow 3\,CaSO_4 + 2\,(NH_4)_3PO_4$$

Tənlik üzrə müsahibə təşkil edərək qarşıda belə bir sual qoyulur: duzların suda həll olması cədvəlindən istifadə edərək reaksiya nəticəsində alınan $(NH_4)_3PO_4$ birləşməsinin suya münasibətini izah edin. Duzların suda həll olması cədvəlindən istifadə edərək şagirdlər yəqin edirlər ki, ammoniumun bütün duzları suda həll olur. Deməli fosforiti ammonium fosfatla qarışdırmaqla torpağa verildikdə reaksiya nəticəsində alınan ammonium ionları və fosfat ionları torpağın uducu kompleksinə daxil olur nəticədə fosfor və azot qida elementlərinin bitkilər tərəfindən mənimsənilməsi mümkün olur. Beləliklə problem həll olunur.

Daha sonra yeni problem irəli sürülür. Bu məqsədlə aşağıdakı məzmunda situasiya yaradılır.

Bitkilərin qidalanması üçün torpağa azot və fosfor gübrələri verilir. Biologiyadan bitkilərin torpaqdan qidaalanmasına aid mənimsənilmiş bliklərdən istifadə edərək izah edin ki, həmin gübrələri bitkilərin mənimsəməsi üçün hansını payızda, hansını isə yazda torpağa verilmək daha əlverişlidir?

Şagirdləri düşündürücü fəaliyyətə cəlb etdikdən sonra kimya kursundan nitratların və fosfatların xassələrini və onların suda həll olması ilə bağlı mənimsədikləri biliklər onlara xatırladılır.

Həmçinin şagirdlərin biologiya kursundan gübrələrin torpağa verilməsi, bitkilərin qida elementlərini torpağın uducu kompleksindən necə mənimsənilməsi mexanizminə aid əldə edilmiş biliklər, əsas gübrələmə , əllavə gübrələməyə aid biliklər onlara xatırladılır.

Onları problemin həllinə doğru istiqamətləndirmək üşün köməkçi suallardan istifadə edilir:

Hansı gübrələri əsas gübrələmə kimi və hansı gübrələri əlavə gübrələmə kimi bitkilərə verilməsi mümkündür?

Nə üçün bəzi gübrələr torpağa paızda , bəziləri isə yazda verilir?

Bu suallarla bağlı şagirdlər düşündürücü fəaliyyətə cəlb edilərək biologiyadan onlara məlum olan biliklərə əsaslanaraq belə nəticəyə gətirilir ki,suda çətin həll olan gübrələr torpağa payızda verilir ona görə ki,həmin gübrələr yaza qədər yağış və qar sularının təsiri ilə tədricən həll olaraq torpağın uducu kompleksinə keçə bilsin. Həmin gübrələrin tərkibindəki qida elementləri olan anion və kationlar mübadilə reaksiyaları vasitəsi ilə torpağın uducu kompleksinə daxil olur.Yazda torpağın uducu kompleksindən həmin qida elementlərinin bitkilər tərəfindən asanlıqla mənimsməsi mümkün olar. Əgər suda asan həll olan gübrələr payızda torpağa veriərsə, yaza qədər onlar yağış və qar sularının təsiri ilə yuyularaq torpağın uducu kompleksindən aparılar.Yazda bitkilər həmin qida elementlərini torpaqdan mənimsəyə bilməzlər.

Həmçinin kimya kursundan onlara məlumdur ki, nitratlar suda asan həll olurlar, fosfatlar isə suda çətin həll olurlar.Bu biliklərdən istifadə edərək şagirdlər belə nəticəyə gətirilir ki, fosfor gübrələri suda cətin həll olduğu ücün onlar torpağa əsas gübrələmə kimi - yəni payızda verilməlidir.

Nitratlar isə suda asan həll olduğu üçün əlavə gübrələmə kimi bitkilərə yazda verilməlidir.

Beləliklə problem həll olunur.

Laborator və praktik işlərdən istifadə etməklə şagirdlərin kimyadan mənimsədikləri nəzəri bilikərin praktikada tətbiq etmək bacarıqlarını da formalaşdırmaq mümkündür.

Bu məqsədlə kimyadan **"elektrolitik dissosiasya nəzəriyyəsi baxımından turşular, əsaslar və duzların kimyəvi xassələri"** mövzusununun tədrisində mənimsənilmiş nəzəri biliklərin tətbiqini nəzərdən keçirək. Bu məqsədlə şagirdlərə aşağıdakı məzmunda praktiki işin yerinə yetirilməsi tapşırılır. Sizə verimiş sınaq şüşəsindəki məhlulda aşağıdakı ionlar vardır:

$Ca^{2+}$ , $Al^{3+}$ , $Pb^{2+}$ , $Zn^{2+}$ , $Cu^{2+}$ , $Fe^{2+}$ , $Mq^{2+}$

Həmin məhlulun üzərinə artıqlaması ilə qələvi məhlulu əlavə etdikdə hansı ionlar məhlulda qalar və hansı ionlar çöküntü əmələ gətirər? Dərslikdə verilmiş duzlar, turşular və əsasların suda həll olması cədvəlindən istifadə edərək nəticəni sxematik şəkildə göstərin.

Şagirdlər dərslikdəki cədvəldən istifadə edərək məhlulda verilmiş ionlardan hansının qələvi məhlulu ilə cöküntü əmələ gətirməsi və hansı ionun isə məhlulda qalacağını dəqiqləşdirərək cavablarını aşağıdakı sxemlə ifadə edirlər.

$Ca^{2+}$ , $Al^{3+}$ , $Pb^{2+}$ , $Zn^{2+}$ , $Cu^{2+}$ , $Fe^{2+}$ , $Mq^{2+}$
Ionların qarışığı + qələvinin artıqliği
məhlulda çöküntüdə
$Ca^{2+}$ ,$Al^{3+}$ ,$Pb^{2+}$ , $Zn^{2+}$ $Cu^{2+}$ , $Fe^{2+}$, $Mq^{2+}$

**“Karbon qazı və onun xassələri”** mövzusundan şagirdlərin mənimsədikləri biliklərə istinad edərək sinif otağındakı havada karbon qazının miqdarının dərsə başlyanda,dərsin sonunda və açıq havadakı miqdarının təcrübü yolla təyin edilməsi və müqayisə aparmaqla nəticə çıxarılması tapşırılır.

Bu məqsədlə əvvəlcə karbon qazının keyfiyyətcə təyin edilməsinə aid biliklər müsahibə yolu ilə onlara xatırladılır.Sonra aşağıdakı praktiki işin yerynə yetirilməsi tapşırılır.

**Təcrübə 1.**Sinif otağının havasında məşğələdən əvvəl , məşğələdən sonra və açıq havada karbon qazının miqdarının təyini.

İşin gedişi : 10 ml qatı kalsium hidroksid məhlulu sınaq şüşəsinə və ya konusvari kolbaya tökülür.Sonra pulverizator (sifonlu rezin kürəcik) hava ilə doldurularaq sınaq şüşəsindəki kalsium hidroksid məhluluna vurulur. Kalsium hidroksid məhlulunda bulantı alınana qədər bu əməliyyat davam etdirilir.Rezin kürəcik neçə dəfə hava ilə doldurulub məhlula vurulduğu əməliyyatının sayı qeyd edilir.

**Təcrübə 2.** Təcrübə 1-də göstərilən həcmdə kalsium hidroksid məhluluna rezin kürəcik vasitəsi ilə hava vurmaq əməliyyatı sinif otağında məşğələdən sonra da təkrar edilir və məhlulda bulantı alınana qədər rezin kürəciklə məhlula hava vurma əməliyyatının sayı qeyd edilir.

**Təcrübə 3.** Təcrübə 1-də göstərilən həcmdə kalsium hidroksid məhluluna açıq havada da rezin kürəcik vasitəsi ilə hava vurulur və bu əməliyyatın sayı qeyd edilir.

Hər üç təcrübədə əhəng məhluluna vurulan havanın bulantı əmələ gətirməsi ondakı karbon qazının miqdarından asılıdır.Havda karbon qazının miqdarı çox olduqda bulantı tez əmələ gəlir.Analizin nəticəsindən müəyyən edilir ki, məşğələdən əvvəl sinif otağının havasındakı karbon qazının miqdarı məşğələdən sonrakı havanın tərkibindəki karbon qzından azdır.Məs: Məşğələdən əvvəl sinif

otağının havasını rezin kürəciklə 10 dəfə doldurub məhlula vurulduqdan sonra əhəng məhlulu bulanır.

Məşğələdən sonra isə pulverizatorla məhlula hava vurma əməliyyatı 6 dəfə təkrarlandıqdan sonra məhlul bulanır. Açıq havada isə bu əməliyyat 15 dəfədən çox təkrar edilir.

Bunun səbəbini aşkar edərək şagirdlər belə nəticə çıxarırlar ki, məşğələ zamanı tənəffüs nəticəsində sinif otağında toplanan karbon qazının miqdarı , açıq havadakı karbon qazının miqdarından və məşğələdən əvvəlki karbon qazını miqdarına nisbətən artmışdır.

Bu göstəricilərə istinad edərək şagirdlər şüurlu surətdə dərk edirlər ki, məşğələdən sonra sinif otaqlqrı və içtimai tədbirlər keçirilən qapalı otaqların havasının ventilyasiya edilməsi nə üçün zəruridir.

Kimyanın tədrisində şagirdləri istehsalat prosesləri ilə tanış edərkən onların mənimsəmiş olduqları nəzəri bilikləri praktik tətbiq sahələri ilə əlaqələndirmək mümkündür.

Buna nümunə olaraq **“Ammonyakın istehsalı”** mövzusunun tədrisində şagirdlərin kimyadan əvvəlki mövzulardan öyrəndikləri nəzəri biliklərin praktik tətbiqi ilə əlaqələndirilməsini nəzərdən keçirək. Bu məqsədlə aşağıdakı suallar əsasında müsahibə təşkil edilir :

1) Reaksiyanın sürətinə təsir edən amillər hansılardır?

2) Dönər kimyəvi reaksiya nəyə deyilir?

3) Reaksiyanın tarazlıq halı nəyə deyilir?

4) Reaksiyanın tarazlıq halına təsir edən amillər hansılardır?

5) Dönər kimyəvi reaksiyalarda əgər reaksiya həcmin azalması ilə gedirsə tarazlığı sağa doğru necə yönəltmək olar?

6) Katalizatorun kimyəvi reaksiyanın sürətinə təsiri nədən ibarətdir?

7) Katalizatorun kimyəvi reaksiyanın sürətinin artırılmasırması prosesinin mexanizmi nədən ibarətdir?

Yuxarıda verilən suallar əsasında şagirdlərin mənimsədikləri nəzəri bilikləri onlara xatırlatdıqdan sonra ammonyakın sintezi reaksiyasının tənliyi üzərində müsahibə təşkil edilir.

$N_2 + 3H_2 \rightleftarrows 2NH_3 + Q$

Müsahibədə aşağıdakı problem situasiyadan istifadə edilir:

1) Amonyakın sintezi reaksiyasının tənliyini nəzərdən keçirin, tarazlığın sağa doğru yönəldilməsi üçün nə etmək lazımdır? Sualına cavab verin Şagirdlər düşündürücü fəaliyyətə cəlb edil dikdən sonra reaksiyanın həcmin azalması üzrə getməsini nəzərə alaraq təzyiqin artırımaqla tarazlığın sağa doğru yğnəltməyin mümkün olması nəticəsini çıxarırlar.

2) Reaksiaanın tənliyinə istinad edərək tarazlığın sağa doğru yönəldiməsi üçün temperaturu necə dəyişmək lazımdır?

Temperaturun reaksiyanın sürətinə təsirinə aid bilikləri şagirdlərə xatırlatmaqla belə nəticəyə gətirilir ki, ekzotermik reaksiyalarda temperaturu azaltmaqla tarazlığı sağa doğru yönəltmək mümkündür. Ammonyakın sintezi reaksiyası ekzotermik olduğu üçün tarazlığı sağa doğru yönəltmək üçün temperaturu azaltmaq lazımdır.

Beləliklə, problem həll olunur.

**"Çuqun istehsalı"** mövzusunun tədrisində şagirdlərin turşular və əsaslr haqqında mənimsədikləri nəzəri biliklərin praktik tətbiqini həyata keçirmək mümkündür. Domna peçində gedən kimyəvi reaksiyaların tənlikləri üzərində müsahibə təşkil edərək şagirdlərə izah edilir ki, dəmir filizi koksun (C) və onun yandırılmasından alınan karbon (II)-oksidin reduksiyaedici təsirindən alınan dəmir yüksək temperaturda ərmiş halda özündə karbonu həll etməklə sementid adlanan $Fe_3C$ ərinti əmələ gətirir.

Bu izahatdan sonra domna peçinin quruluşu haqqında şagirdlərə məlumat verilir.qeyd edilir ki, domna peçi içəri tərəfdən odadavamlı kərpic ilə örtülür. Bu izahatdan sonra qarşıda belə bir problemli vəziyyət yaradılır: Nə üçün domna peçinin divarı daxildən metal örtüklə deyil odadavamlı kərpiçlə örtülür?

Şagirdlərin diqqətini problemin həllinə yönəltmək üçün turşular və əsaslara aid mənimsədikləri biliklər onlara xatırladılır. Sonra qarşıda belə belə bir sual qoyulur: Domna peçinin daxilində yüksək temperaturda alınan oksidlərdən karbon (IV) oksid hansı oksidlər tipinə aiddir. Şagirdlər $CO_2$ –nin turşu oksidi olduğunu qeyd edirlər. Burada qarşıda yeni bir problemli sual qoyulur .Turşu oksidlərinin kimyəvi xassələrini yda salaraq izah edin əgər domna peçinin divarı içəri tərəfdən metal səth ilə örtülmüş olarsa hansı hadisə baş verə bilər. Şagirdlər turşu oksidlərinin yüksək temperaturda metal oksidləri ilə reaksiyaya daxil olmasnı xaırladılaraq belə nəticə çıxarırlar ki, domna peçinin daxili divarı matal səth ilə örtülərsə, həmin səth kimyəvi reaksiya nəticəsində dağıar.

Beləliklə problem həll olunur.

Mənimsənilən biliklərin praktik tətbiqini bu istiqamətdə həyata keçirtməklə şagirdlərin yaradıcı təfəkkürləri inkişaf etdirilir və mənimsənilən biliklərin yaddaşda uzun müddət saxlanılmasna səbəb olur.

## İstifadə edilmiş ədəbiyyat:

1. Ümumtəhsil məktəblərinin 7-11-ci sinifləri üçün kimya dərslikləri. Bakı, 2018-ci il

2. Kuzneçova N.E. .Metodika prepodavaniya ximi.Moskva. 1984.

3.Tağıyev T.İ.Kimyanın tədrisi metodikası. Ali məktəblər üçün dərslik. I, II hissə, Bakı.2012-2013-cü il.

Т.И.Тагиев

**Усиление практического направления в преподавании химии**

**РЕЗЮМЕ**

Результат исследование определено что, использование возможности курса химии систематически применение теоретических знаний в практике способствует овладеть умений и развивается самостоятельность учащихся.

**T.I.Tagiev**

**Strengthening practical directions in the teaching of chemistry**

**SUMMARY**

The result of the study is determined that the use of the possibility of a course in chemistry, systematically applying theoretical knowledge in practice contributes to mastering skills and developing students' independence.

**Açar sözlər:** nəzəri biliklər, praktiki istiqamət, tətbiq etmə, problemli təlim, kimya istehsalatı, mineral gübrələr, dönər kimyəvi reaksiyalar, turşu oksidi.

**Ключевые слова:** Теоретические знания, практическое направление, применение, проблемная ситуация, химическое производство, минеральные удобрен, обратимая химическая реакция, кислотный оксид

**Key words:** theoretical knowedge practical direktion, applekation, problem situational, chemical produktion, mineral fertilizers, returing chemical reactions, acid oxides.